**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ**

# ƏMRİ

№ 37 «02» 05 2019 cu il

**"Rayon ərazisində qanunsuz və özbaşına torpaq sahələrinin zəbt edilməsi hallarının aşkar edilməsi, qarşısının alınması və bununla əlaqədar qanunamüvafiq tədbirlərin görülməsi məqsədilə komissiyanın yaradılması haqqında"**

Rayon ərazisində mütəmadi olaraq torpaq sahələrinin qanunsuz zəbt edilməsinin qarşısının alınması ilə bağlı həyata keçirilən reydlər zamanı ayrı-ayrı vətəndaşlar və hüquqi şəxslər tərəfindən heç bir icazə sənədləri təqdim olunmadan özbaşına tikinti işlərinin aparılması hallarının artdığı müəyyən edilmişdir. Yaranmış vəziyyət torpaq sahələrinin qanunsuz zəbt edilməsinin aşkarlanmasını, qarşısının alınmasını və bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş təxirəsalınmaz tədbirlərin görülməsini zəruri etmişdir.

Göstərilənləri nəzərə alaraq rayon ərazisində torpaq sahələrinin qanunsuz zəbt edilməsinin vaxtında aşkarlanması, qarşısının alınması və bununla əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlərin görülməsi ilə bağlı komissiyanın yaradılması məqsədi ilə Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamənin 4.11.3 və 6.8-ci bəndlərinə əsaslanaraq

**Ə M R E D İ R Ə M:**

1. Rayon ərazisində torpaq sahələrinin qanunsuz zəbt edilməsinin vaxtında aşkarlanması, qarşısının alınması və bununla əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlərin görülməsi ilə bağlı aşağıdakı tərkibdə komissiya yaradılsın:

**Komissiyanın sədri:**

İlqar Süleymanov — Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini

**Komissiyanın üzvləri:**

Hüquq şöbəsinin müdiri — Yunis Hüseynov

Azər Kərimov — Rayon təsərrüfatı şöbəsinin müdiri

Şahin Musayev — Rayon təsərrüfatı şöbəsinin böyük məsləhətçisi (memar)

Tapdıq Cəfərov — Rayon təsərrüfatı şöbəsinin baş məsləhətçisi (mühəndis)

Rayon ərazisində fəaliyyət göstərən bələdiyyələrin sədrləri və Binəqədi Rayon İcra Hakimiyyəti başçısının qəsəbə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndələri (ərazi üzrə)

2. Komissiyaya tapşırılsın ki, rayon ərazisində torpaq sahələrinin qanunsuz zəbt edilməsinin vaxtında aşkarlanması, qarşısının alınması və bununla əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlərin görülməsini təmin etsin.

3. Rayon ərazisində fəaliyyət göstərən bələdiyyələrin sədrlərinə tövsiyə olunsun və Binəqədi Rayon İcra Hakimiyyəti başçısının qəsəbə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndələrinə tapşırılsın ki, torpaq sahələrinin qanunsuz zəbt edilməsinin qarşısının alınması məqsədilə ərazilərə nəzarətin gücləndirilməsini təmin etsinlər.

4. Müəyyən edilsin ki, rayonun qəsəbə və sahə inzibati ərazi dairələrinin ərazilərində torpaq sahələrinin qanunsuz zəbt edilməsi hallarının aşkar edilməsi və qarşısının alınması üçün qanunvericiliyə uyğun olaraq, tədbirlərin görülməsinə RİH başçısı aparatının rayon təsərrüfatı şöbəsi, RİH başçısının müvafiq ərazilər üzrə nümayəndələri məsuliyyət daşıyır.

5. Komissiyanın sədri Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İ.Süleymanova həvalə olunsun ki, torpaq sahələrinin qanunsuz zəbt edilməsinin qarşısının alınması ilə əlaqədar görülmüş işlərin nətəcəsi barədə mütəmadi olaraq Rayon İcra Hakimiyyəti başçısına məlumat verilməsini təmin etsin.

6. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**